# Təbəddülatlı tarix pəncərəsindən – Azərbaycan legionu



Elşən Mirişli

Gəncə şəhəri, tarixçi

## IV Yazı

## İsrafil İsrafilov

***İsrafil Məhəmmədnəbi oğlu İsrafilov; 5iyul1892 və ya 25 yanvar 1893,Yelizavetpol qəzası,Yelizavetpol quberniyası, Rusiya İmperiyası - 1946, Bakı, Azərbaycan SSR, SSRİ.***

***Rusiya İmperiyası (1721-1917) kapitanı,Azərbaycan Xalq Cümhuriyyəti(1918-1920) və Polşa Respublikası(1918-1939) polkovniki,üçüncü Reyx ştandartenfüreri;siyasi mühacir, Berlində Azərbaycan Milli Birlik Məclisinin rəhbəri (1943-1945).***

***İsrafil İsrafilov bəzi mənbələrə görə 5 iyul 1892-ci ildə,digər mənbələrə görə 25 yanvar 1893-cü ildə Yelizavetpol qəzasının (indiki Şəmkir rayonunun) Seyfəli kəndində, Məhəmmədnəbi kişinin ailəsində anadan olmuşdur.Atası əslən Daşkəsən rayonunun "Qabaqtəpəli Nəbi" adı ilə tanınmışdır.***

O,1912-ci ildə Gəncə şəhərindəki səkkiz sinifli gimnaziyanı bitirmişdir.Daha sonra Hərbi təhsil almaq üçün Tiflis Hərbi məktəbinə daxil olmuşdur.1914-cü ildə məktəbi qurtararaq podporuçik (kiçik leytinant) rütbəsini almışdır.Təhsilini tamamladıqdan sonra İsrafil İsrafilov Kazan Hərbi Dairəsinin qərargah rəisinin sərancamına göndərilir və Simbirskdə (indiki Ulyanovsk) yerləşən 96-cı piyada ehtiyat batalyonunda xidmət etmək üçün təyinat alır.1914-1915-ci illərdə həmin batalyonun 4-cü bölüyündə kiçik zabit olaraq xidmət edir.1915-1916-cı ildə 54-cü Minsk piyada alayının tərkibində Cənub-Qərb cəbhəsində,1916-cı ilin dekabrında Rumıniya cəbhəsində gedən döyüşlərdə iştirak edir.1915-ci ildə ona poruçik (baş leytinant) rütbəsi verilir.1915-ci ildə Bokiyma kəndinin yaxınlığındakı döyüşdə,3 may 1915-ci ildə Tamanoviçi kəndindəki döyüşdə yaralanır.Tez bir zamanda sağalaraq cəbhəyə qayıdır.1916-cı ildə ştabs-kapitan,1917-ci ildə isə kapitan olur.

1917-ci ilin Fevral inqilabından sonra İsrafil İsrafilov çar ordusu sıralarında xidmətə son verir.General Əliağa Şıxlinskinin dəvəti ilə onun rəhbərliyi altında Müsəlman Korpusunun (daha sonra Əlahiddə Azərbaycan Korpusu) yaradılmasında iştirak edir.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti ordusu sıralarında Bakının erməni-rus işğalından azad olunması uğrunda mübarizədə yaxından iştirak etmişdir.Azərbaycan Hökumətinin 11 yanvar 1919-cu il tarixli qərarı ilə ona podpolkovnik hərbi rütbəsi verilmişdir.Hərbi nazirin 14 yanvar 1919-cu il tarixli əmri ilə 1-ci Cavanşir piyada alayının komandiri,19 fevral 1919-cu il tarixli əmri ilə isə Hərbi nazirin yanında tapşırıq zabiti vəzifəsinə təyin edilmişdi.1919-cu il iyunun 25-də imzalanmış başqa bir əmrlə İsrafil İsrafilov yenicə formalaşdırılmağa başlayan 5-ci Bakı piyada alayına komandir təyin edilmişdi.Muğanda ruslara və Zəngəzur və Qarabağda erməni hərbi birləşmələrinə qarşı savaşlarda (1920-ci ildə Əsgəran,Xankəndi kəndlərində və Şuşa şəhərində daşnaklara qarşı hərbi əməliyyatlarda) iştirak etmiş, göstərdiyi şücaətə görə Hərbi nazirin 21 mart 1920-ci il tarixli əmri ilə ona polkovnik hərbi rütbəsi verilmişdir.

1920-ci ildə Azərbaycan rus işğalına uğrayandan sonra İsrafil İsrafilov iki ilə yaxın müddət ərzində İran,Ərəbistan,Hindistan və Misirdə səfil-sərgərdan gəzib dolaşandan sonra nəhayət İstanbula gəlib çıxa bilir.Burada 1923-cü ilin əvvəllərində Azərbaycan Milli Mərkəzinin rəhbəri Məmməd Əmin Rəsulzadə ona müraciət edib Azərbaycan ordusu haqda xatirələrini yazmağını istəyir.

1924-cü ildə böyük məhrumiyyətlərdən sonra Polşaya gedir.Burada Polşa ordusunda müqavilə əsasında xidmətə başlayır.1926-1928-ci illərdə Varşava Ali Hərbi Məktəbində təhsil alır.Əvvəlcə Varşavadakı 36-cı piyada alayında xidmət edir,1939-cu ilin yazında isə artıq Qrodnu şəhərində yerləşən 29-cu piyada diviziyasında qərargah zabiti olur.

***XX əsrin 30-cu illərində Polşada əsasən rus dilində nəşr edilən "Şimali Qafqaziya" və "Qafqaziya dağlıları" jurnallarında Azərbaycanın görkəmli siyasi mühacirlərinin çap olunan məqalələri,o cümlədən Məmməd Əmin Rəsulzadə,Miryaqub Mehdiyev,Mirzə Bala Məmmədzadə,Əli Azərtəkin,İsrafil İsrafilov (İsrafilbəyov),Cahangir bəy Kazımov,Nağı Bayramlı və gizli imza ilə yazan digər müəlliflərin əsərləri yer almışdır.***

İkinci Dünya Müharibəsi ərəfəsində polkovnik rütbəsində Polşa silahlı qüvvələri tərkibində xidmət edən İsrafil bəy,Hitler Almaniyası tərəfindən Polşanın işğalı vaxtı əsir düşür.Bolşevik rejiminə nifrət keçmiş rus ordusunun və milli orduların bir sıra zabitlərini Hitler Almaniyası ilə əməkdaşlıq yoluna çəkmişdi.Polkovnik İsrafil bəy də bələlərinin sırasında idi.1943-cü ilin yayından 1945-cü ilə qədər Berlində Şərq Torpaqları naziriiyi yanında fəaliyyət göstərən Azərbaycan Milli Birlik Məclisinin sədri olmuşdur.Eyni zamanda türk mənşəli hərbi əsirlərdən ibarət 162-ci Türküstan piyada diviziyasının 314-cü piyada alayının komandiri olmuşdu.1944-cü ilin dekabrından etibarən ştandartenfürer rütbəsində III Reyxin (1933-1945) Qafqaz hərbi birləşməsinin "Azərbaycan" döyüş qrupunun komandiri idi.17 mart 1945 –ci ildə Almaniya Azərbaycanın müstəqilliyini tanıdıqdan sonra mühacirətdəki Azərbaycan hökumətinin başçısı kimi Vermaxtda hərbi müşavir təyin edilmişdi.İsrafil İsrafilov bu zaman Azərbaycan Milli Birlik Məclisinin sədri idi.

İsrafil bəy İkinci Dünya müharibəsinin sonunu Amerika işğal zonasında qarşılayıb və ABŞ ordusu tərəfindən SSRİ-yə təhvil verilib.Onu Azərbaycana gətirib Bakı Hərbi Dairəsinin tribunalında mühakimə etdilər.O,nə SSRİ-ni,nə də keçmiş Sovet Azərbaycanını özünə vətən saymadığını,ittiham olunduğu "vətənə xəyanət" maddəsi ilə sona qədər razılaşmayıb.İsrafil İsrafilov Çar II Nikolaya(1894-1917) sədaqət andı içdiyini Çar güllələndikdən sonra özünü Azərbaycanın istiqlal mübarizəsinə həsr etdiyini.Vətəni işğal olunduqdan sonra da mübarizəsini dayandırmadığını bildirib.Son söz olaraq mühacirətdəki Azərbaycan hökumətinə və legiona başçılıq etdiyini bundan peşman olmadığını bir gün Azərbaycanın mütləq rus işğalından qurtaracağını bildirib.Kommunistlərə və onların başçılarına ağır işgəncələr altında bir daha nifrətini bildirib.Stalinin ən sadiq köpəklərindən Mircəfər Bağırovun tapşırığı ilə ona misli görünməmiş işgəncələr yaşadıblar.Azərbaycanda baş verən bir çox üsyanlar Bağırovun əmri ilə yatırılmışdı(Şəki üsyanı və sairə). İsrafil İsrafilov üçün 1945-ci il iyulun 11-də Bakı Hərbi Dairəsinin Tribunalı tərəfindən ölüm hökmü çıxarılıb,1946-cı ildə edam olunub.

İsrafil İsrafilov heç vaxt evlənməyib və övladı da olmayıb.Bütün ömrünü Azərbaycan istiqlal davasına sərf edib.

İsrafil İsrafilov öz qələmi ilə yazdığı yazılarında Stalini böyük təşkilatçı hesab edirdi. İsrafilov hesab edirdi ki, onun gücü təşkilatçılıq bacarığında idi.Siyasi həyatında özgələrinə hörmət,təmkinlik,siyasi xəttə sədaqət kimi anlayışlar ona yad idi.Stalin öz hakimiyyəti yolunda hər vasitəyə əl ata bilərdi.

Stalin necə adam idi!

O amansız terror tərəfdarı idi.Yalnız bu yollla azlıq öz hakimiyyətini çoxluğa,bütün ölkəyə zorla qəbul etdirə bilərdi.

Baxın Stalin toplantıda nitq edir:

- Ən yeni demokratiya bizim məmləkətimizdədir.Ən gözəl həyat sosializm həyatıdır. Ən güclü ordu Qızıl ordudur.Ən yüksək elm,sənət və ədəbiyyat Sovet elmi, Sovet sənəti,Sovet ədəbiyyatıdır...

İsrafil İsrafilov isə eyni məsələni belə təsvir edir:

Ən qorxulu diktator Stalindir.Ən rəzil həyat sosializm həyatıdır.Ən vəhşi ordu Qızıl ordudur.Ən çürük elm,sənət və ədəbiyyat Sovet elmi,sənəti və Sovet ədəbiyyatıdır... Budur,sovet cəmiyyətinin daxili vəziyyəti:

Bu nəməlum daxili vəziyyət yalnız xarici müdaxilə ilə nümayiş edilə bilərdi.Həqiqətən 1941-ci ildə Hitler Rusiyaya qarşı qalxınca dəmir pərdə yırtıldı və sovetlər birliyindəki yeraltı fəaliyyət də günəş qarşısında işıqlandı.

## İsrafil İsrafilovun Təhsili

1.Gəncə Kişi Gimnaziyası.
2.Tiflis Hərbi Məktəbi.
3.Varşava Ali Hərbi Məktəbi.

Kiçik qardaşı Hidayət onunla birgə Polşaya mühacirət etmiş,Şərq Gəncləri Yığıncağının üzvü olmuşdur.İkinci Dünya müharibəsindən sonra Amerika Birləşmiş Ştatlarına mühacirət edib və Amerikadakı siyasi mühacirətin görkəmli nümayəndələrindən olub. Hidayət İsrafil 8 iyul 1972-ci ildə vəfat edib.

Hidayət İsrafilin oğlu Çingiz İsrafil 1986-1989-cu illərdə Türkiyənin Baş naziri Turqut Özalın iqtisadi məsələlər üzrə müşaviri və 1990-1992-ci illərdə Azərbaycan prezidenti Ayaz Mütəllibovun iqtisadi və xarici əlaqələr üzrə müşaviri olmuşdur.

## Azərbaycan legionunun Fransaya köçürülməsi

1941-ci ildə Qafqaz Müsəlman legionu yaradılıb,1942-ci ildə avqustun 2-də isə Azərbaycan (Azerbajdzansche) legionu yaradıldı.Qafqaz cəbhəsində 4500 Azərbaycan türkündən ibarət 5 batalyon özlərini yaxşı tərəfdən göstəriblər.1943-cü ilin yayında 162-ci türk piyada diviziyası yaradılıb.Azərbaycan legionunun əsas bazaları Polşa və Almaniya ərazilərində yerləşirdi.Sonralar isə legion Fransanın cənubunda yerləşən Rodess şəhərinə köçürdülər.1944-cü ildə Azərbaycan legionunun rəhbərləri İsrafil İsrafilov,Əbdürrəhman Fətəlibəyli Düdənginski,R.Babayevin,T.Məmməd və Ə. Qazıyevin fəallığı ilə "İrtibat Qərargahı"-nın (Ferbindunqştabın) Paris filialı yaradıldı.Paris filialına Nuşibəy Zülqədərov,Rza Tağıyev və Əlibəy Hacınski daxil oldular.1944-cü ildə Parisin almanlardan azad edilməsindən sonra Paris filialı da buraxıldı.Azərbaycan legionunun bir hissəsi məhv edildi,bir hissəsi isə ingilis-amerikan qoşunlarına təslim oldu.Azərbaycan legionu əsgərləri 70 min əsgər Almaniya tərəfdə müstəqil dövlət yaratmaq uğrunda döyüşüblər.

## Azərbaycan legionerlərinin mətbuat fəaliyyəti

***İkinci Dünya Müharibəsinin başlanması ilə formalaşan Azərbaycan legionu çətin şəraitdə olmalarına baxmayaraq,Azərbaycanın milli müstəqilliyinin qazanılmasına və Almaniya hökuməti tərəfindən tanınmasına çalışmışdır.İkinci Dünya müharibəsi illərində Almaniyada fəaliyyət göstərən Azərbaycanın ayrı-ayrı siyasi xadimlərinin və nüfuzlu hərbçi-legionerlərinin köməyi ilə minlərlə yurddaşın həyatı xilas edilmişdir.***



Radioverilişin Azərbaycan redaksiyasına əvvəllər Şamaxı rayonundan olan,sovetləşmədən sonra Türkiyəyə mühacirət etmiş,Tuğay Məmmədov başçılıq etmişdir.Sonradan Azərbaycan redaksiyasına rəhbərlik Şəki rayonundan olan Ənvər Qazıyevə tapşırılmışdı.Redaksiyada çalışanlar 300 marka əmək haqqı,hər çıxışa görə əlavə 10 marka müəllif haqqı alırdılar.Redaksiya proqramları sırasında "Anaya məktub", "Milli müstəqillik"," Azərbaycan nə uğrunda döyüşür" adlı verilşlər də vardı.

1942-ci ildən başlayaraq hərbi əsirlərin yerləşdiyi düşərgələrdə və legionlarda poçt işi təşkil edilmiş,qəzetlər nəşr olunmağa başlamışdı.Düşərgələrdə "Kılıç","Zarya" adlı qəzetlər nəşr edilir, həm də siyasi təbliğat xarakteri daşıyırdı.

***Azərbaycan legionerlərinin yayımladığı "Azərbaycan","Hücum"-qəzetlər, "Milli Birlik" dərgisi Vermaxt tərəfindən maliyyələşdirilir,Azərbaycan legionerlərinin fəallığı ilə çap edilirdi.Bundan əlavə,legionerlər arasında yayılan "Siqnal" jurnalı rus dilində çap edilsə də,Azərbaycan türklərinin döyüş qəhrəmanlığından bəhs edən çoxlu yazılar nəşr olunurdu."Azərbaycan" qəzeti isə 1942-ci ilin may-iyun aylarından Berlində nəşr edilməyə başladı."Azərbaycan"qəzeti Şərq Nazirliyinin xüsusi himayədarlığı ilə nəşr edilirdi.Qeyd edək ki,qəzetin ilk saylarında Osmanlı dilinə (Türkiyə türkcəsindən öncəki dil) üstünlük verən mühacirlərə azərbaycanlı legionerlər etiraz etmiş, onu müasir Azərbaycan türkcəsində,latın əlifbası ilə nəşrinə nail olmuşdular.Sonradan isə qəzet təbliğatı Təbliğat üzrə Baş İdarənin himayəsinə keçirilmişdi.Qəzet Berlində nəşr edilirdi,6-8 səhifədən ibarət idi və tirajı 10 mindən 20 minə qədər qalxırdı.Qəzetdə Məcid Musazadə (Qarsalanlı) redaktor,Cəmil İsgəndərli redaktor müavini,Əliheydər Süleymanov arxiv işçisi,Mövsüm Babayev təlimatçı,Xaliq Babayev mətbəə işləri üzrə texniki əməkdaş,Zahid Ağayev icraçı katib,Əli Adıgözəlov korrektor vəzifəsində çalışırdılar.Sovet Azərbaycanında sonralar "Mixaylo" kimi məşhurlaşmış Mehdi Hüseynzadə də legioner olmuş və "Qürbətzadə" təxəllüsü ilə həmin mətbuat orqanında çıxış etmişdir.***

**(ardı var)**